## Sığortaolunanların sayı artır

*Fərdi hesabı olanların sayındakı artım Azərbaycanda fəaliyyət göstərən əcnəbi vətəndaşlara da aiddir*

2006-cı il yanvarın 1-dən tətbiq olunan «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən, əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən hesablanmağa başlanıb. Yəni əmək pensiyaları ödənilmiş məcburi sosial sığorta haqlarına əsasən təyin olunur. Bu isə pensiya məbləğini sosial sığorta haqlarının vaxtında ödənilməsindən birbaşa asılı vəziyyətə gətirir. Ona görə də sığortaolunan işəgötürənlərlə əmək müqavilələrinin bağlanılmasında və sosial sığorta haqlarının ödənilməsinə diqqət verməlidir. Ödənilmiş sosial sığorta haqlarının fərdi uçotunun aparılması məqsədilə Dövlət Sosial Müdafiə Fondu (DSMF) hər bir sığortaolunanı fərdi uçot sistemində uçota alaraq, onun üçün fərdi şəxsi hesab açır. Həmin hesabda sığortaolunanların gələcək pensiya təyinatı hüququnun reallaşdırılması üçün tələb olunan mühüm məlumatlar toplanır. Bu zaman sığortaolunanın DSMF-də uçota alındığını və onun üçün fərdi şəxsi hesabın açıldığını təsdiqləyən hüquqi sənəd olan sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilir. Fərdi şəxsi hesabda toplanılan vəsaitdən istifadə isə əmək pensiyası hüququ yarandıqda mümkün olur.

Fərdi uçot sistemində qeydiyyata düşmək üçün işəgötürənə müraciət etməli və ondan fərdi uçot sisteminə qeydiyyata alınmaq üçün müvafiq tədbirlərin görülməsini tələb etmək lazımdır. İşəgötürən isə yeni işçi ilə əmək müqaviləsi bağladığı gündən sonra 1 ay ərzində müvafiq DSMF orqanına ərizə ilə müraciət etməlidir.

Ölkə vətəndaşlarının gələcək pensiya təminatı onların məcburi dövlət sosial sığorta haqlarının ödəyicisi olmaqla təmin edilir. Azərbaycanda ölkə vətəndaşları ilə yanaşı, ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olub gəlir əldə edən xarici vətəndaşlar da məcburi dövlət sosial sığorta haqlarının ödəyiciləridir. Həmin vətəndaşların DSMF-də uçotu , fərdi şəxsi hesabının açılması və sosial sığorta şəhadətnaməsinin verilməsi qaydaları Azərbaycan vətəndaşları üçün tətbiq olunan qaydalarla eynidir.

DSMF-nin mətbuat xidmətindən verilən məlumata görə, cari ilin birinci yarısında dövlət sosial sığorta sistemində fərdi şəxsi hesabı olan sığortaolunanların sayı 2 mln. nəfəri ötüb. Belə ki, bu ilin 6 ayı ərzində DSMF tərəfindən əlavə olaraq 80.889 vətəndaşa sosial sığorta nömrəsi verilib və onlar üçün fərdi hesab açılıb. Sığortaolunanların 56,2%-ni kişilər, 43,8%-ni isə qadınlar təşkil edir. Fərdi şəxsi hesabı olanlar arasında yaşı 40-dan 50-dək olan sığortaolunanlar üstünlük təşkil edir. Göstərilən yaş kateqoriyalarını təmsil edən vətəndaşlar ümumi sığortaolunanların 23,8%-ni əhatə edir.

Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı ilin ilk altı ayı ərzində 5,23% artaraq 12.898 nəfərə yüksəlib. 1 iyul 2012-ci il tarixinə olan statistikaya əsasən, ümumilikdə 95 ölkənin vətəndaşları arasında, əvvəllər olduğu kimi, Türkiyə vətəndaşları çoxluq təşkil edir: 7497 nəfər. İkinci yerdə Gürcüstan (1527 nəfər) üçüncü yerdə isə Rusiya Federasiyasının vətəndaşlarıdır (672 nəfər). Sonrakı yerlərdə İran İslam Respublikası, Hindistan, Çin Xalq Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Krallığı, Özbəkistan, Bosniya və Herseqovina, Pakistan İslam Respublikası, Almaniya, Ukrayna, Filippin, İtaliya, Türkmənistan və s. ölkələr gəlir.

AYTƏN